*AMEA Filologiya və sənətşünaslıq, 2025, № 2* *ISSN 2663-4368*
*Səhifə: 171-178* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2025.2.171*

# Anadolu Ələviliyi və Ozan-Aşıq ədəbiyyatı

**Ləman Osmanova**
Naxçıvan Dövlət Universiteti

**Annotasiya:** Məqalədə Anadolu Türkiyəsində əsrlər boyu yaşayan sufi-qızılbaş ideologiyasının ozan-aşıq ədəbiyyatındakı təzahürlərindən bəhs edilir. Təməli Ərdəbil şeyxləri tərəfindən qoyulan bu fəlsəfi təlim bütün Yaxın və Orta Şərqdə xalq sufizminin əsasını təşkil edən ruhani cərəyanlardan biri olmuşdur. Xorasandan Qafqaza, Anadoludan Balkanlara qədər uzanan geniş bir coğrafiyada Ələvi-Qızılbaş dünyagörüşü bu gün də yaşamaqdadır. Azərbaycan Səfəvilər Dövlətinin qurucusu olan Şah İsmayıl Xətainin anadilli poeziyası xüsusilə də Anadolu Türkiyəsindəki xalq ozanlarının repertuarında əsas yerlərdən birini tutur. Xətainin mənəvi-ruhani hakimiyyəti bu günümüzdə də Anadolu Qızılbaş-Ələvi toplumu üzərində sürməkdədir. Onun şeirləri Anadolu ələviləri arasında zikr və ibadət mərasimlərində istifadə edilir. Bu poetik nümunələr müqəddəslik atributları daşımaqla həm də Anadolu Türkiyəsində milli kimliyin, türklüyün əsas bazasını qoruyub saxlayan amillərdən biridir.
**Açar sözlər:** Anadolu, Qızlbaş, Ələvi, saz, poeziya, Xətai, Səfəvi, sufizim, Balkanlar və s.

**Məqalə tarixçəsi:** göndərilib – 06.11.2025; qəbul edilib – 17.12.2025

## Anatolian Alevism and Ozan-Ashik literature

**Laman Osmanova**

**Abstract:** The article discusses the manifestations of the Sufi-Qizilbash ideology, which has existed in Anatolian Turkey for centuries, in the literature of the ozan-ashug. This philosophical teaching, founded by the sheikhs of Ardabil, has been one of the spiritual trends that formed the basis of folk Sufism throughout the Near and Middle East. The Alevi-Qizilbash worldview still lives today in a vast geography stretching from Khorasan to the Caucasus, from Anatolia to the Balkans. The native poetry of Shah Ismail Khatai, the founder of the Safavid State of Azerbaijan, occupies one of the main places in the repertoire of folk poets, especially in Anatolian Turkey. Khatai's moral and spiritual authority continues to this day over the Anatolian Qizilbash-Alevi community. His poems are used in remembrance and worship ceremonies among the Anatolian Alevis. These poetic examples, carrying the attributes of holiness, are also one of the factors that preserve the basic basis of national identity and Turkishness in Anatolian Turkey.
**Keywords:** Anatolia, Qızlbash, Alevi, saz, poetry, Khatai, Safavid, Sufism, Balkans, etc.

**Article history:** received – 06.11.2025; accepted – 17.12.2025

## Giriş / *Introduction*

Anadolu yaylası əsrlərdir ki, çoxmillətli, çoxçeşidli mədəniyyətlərə ev sahibliyi edir. Burada yaşayan hər xalq, hər millət özünəxas regional və eyni zamanda da tolerant sivil dəyərlər formalaşdırmışdır. Bu xalqlar içərisində əlbəttə ki, Anadolunu çoxdan öz ana vətəninə çevirmiş türklər hər zaman aparıcı mövqe tutmuşdur. Türk kimliyi, türk dominantlığı antik dövr bitdikdən sonra tarixin bütün çağlarında bu coğrafiyanın bu gününü, gələcəyini təmin et-

mişdir. Türklər hər zaman bu ərazilərdə hakim olmuş və beləliklə də Anadolu torpaqları türk dilinin, türk mədəniyyətinin hakimiyyəti altında idarə olunmuşdur.

“Anadolu” deyərkən, ilk ağıla gələn Bizans, Səlcuqlu və ya Osmanlı imperatorluqları deyil, türk xalq ədəbiyyatı, türk xalq musiqisi, türk folkloru, türk etnoqrafiyasıdır. Xəlqi və milli dəyərlər bu torpaqlarda ümumbəşəri dəyərlərlə çox gözəl və axıcı bir şəkildə birləşərək, spesifik bir sivilizasiya örnəyi ortaya qoymuşdur. Həm uyğunluqlardan, həm də ziddiyyətlərdən yaranan mədəni-mənəvi harmoniya Anadolunu elə Anadolu türklərinin öz deyimiylə desək, “dünyanın qəlbi”nə çevirmişdir.

## Əsas mətn / *Main Part*

### Anadolu Ələviliyi və Türk kimliyi

Anadolu türk mədəniyyəti nə qədər başqa mədəniyyətlərlə çulğalaşsa da, bu torpaqlarda dəyişməz olaraq qalan və özünəməxsus şəkildə modernləşən bir amil də vardır; ozan-aşıq sənəti. “Türklərin, hələ müsəlman olmadan öncə başlatdığı ozanlıq ənənəsinin bir davamı sayılan Ələvi aşıqları bir çox yönüylə bənzərsiz hesab edilən əsərlərin memarı olmuşdurlar. Anadoluda Fars və Ərəb mədəniyyətinin üstünlüyünə qarşı Türk kültürünün daşıyıcısı sayılan Ələvi ədəbiyyatı Türk qalaraq, İslam olmağı seçmişdir [1, s. 32].

Türk tarixinin demək olar ki, bütün dövrlərində bir xalqın, bir toplumun tarixini yaradan, yazan bu mədəniyyət hadisəsi çağdaş Anadoluda yenə də öz qüvvəsində, öz əhəmiyyətində, öz aktuallığındadır. Hətta gün keçdikcə, zaman irəlilədikcə ozan-aşıq yaradıcılığına daha artıq ehtiyac duyulur. Çünki, etiraf etmək lazımdır – xüsusilə də Anadolu Türkiyəsində türk kimliyinin varlığı və mühafizəsi ozan-aşıq mədəniyyətindən çox asılıdır. Ana dilinin saflığı, xalq psixologiyasının spesifikası, başqa mədəniyyətlərə qarışıb assimilyasiya olunmamaq tələbi məhz Anadoludakı ozanlar, aşıqlar, dədələr, pirlər, abdallar tərəfindən qarşılanmış, bu gün də bu proses davam etməkdədir. Türkiyəli araşdırmaçı yazar, Cem Vafkının başqanı İ. Doğan belə ifadə edir ”Türk qövmləri İslamı bəlli bir zaman içərisində qəbul edərkən, sazlarını ata bilməzdilər. Sazlarıyla İslamı tərənnüm edəcəkdilər. Semahlarını ilahi bir rəqs olaraq, sazın müşaiyətində, özlərində təcəlli etdiklərinə inandıqları Tanrılarıyla bütünləşdirərək icra edəcəkdilər. Qadın, kişi birlikdə ibadət edəcəkdilər [2, s. 27-28].

Anadolu kimi mədəniyyətlər mozaikası olan bir coğrafiyada türklüyün, türkçülüyün, xəlqiliyin, nəhayət milli nüvənin qorunmasının təminatı üçün ozan-aşıq gerçəkliyindən daha güclü, daha real heç nə mövcud deyil. İstər bədii ədəbiyyat və onun zəminindəki dastançılıq ənənəsi, istər musiqi materialının daima mərkəzəqaçma özəlliyi və bəsitliyi, istərsə də bu sənət növünün kənar faktorlarla – o cümlədən musiqi məqamları, ritm özəllikləri, şeir formaları və digər məsələlərlə əlaqədar xeyli dərəcədə qapalı və mühafizəkar olması Anadoludakı türk mədəniyyətinin əsalətini və təmizliyini qoruyub saxlayır. Məsələn, ozan-aşıq sənətinin baş atributu olan saz (bağlama) aləti elə bir musiqi ifaçılığı ünsürüdür ki, onun özünəxas repertuarı, çalğı üslubu və səs quruluşu vardır. Yəni, digər janrlardakı musiqi nümunələrini – həmçinin arabesk, pop, türk sənət musiqisi və s. sazla ifa etmək, onu ozan-aşıq strukturuna salmaq qeyri-mümkündür. Adını çəkdiyimiz repertuar məsələsi burada çox önəmlidir. Belə ki, ayrı-ayrı virtuoz solo saz ifalarını nəzərə almasaq, Anadolu ozanlığı sözsüz, şeirsiz mövcud deyil. İncəsənət, səhnə, konsert hadisəsinə çevrilmiş mahnı, türkü janrından fərqli olaraq, gerçək və əsl ozanlıq məhz Anadolu Ələvi-Qızılbaş deyiş və semahlarında özünü göstərir. Sözün buradakı əhəmiyyəti həlledicidir. Təkyə və cəm evi musiqisi olaraq da bilinən saz semahları, sazlı zikrlər sözün musiqidən önə keçdiyi, musiqinin burada ötürücü və qüvvətləndirici bir vasitə olması ilə səciyyələnir. Heç də təsadüfi deyil ki, cəm evlərində zakirlik edən bir çox tanınmış sənətçilər səhnədə, efirdə göstərdikləri sənəti təkyədə ortaya qoya bilmirlər, çünki cəm evlərində səslənən şeir və musiqilər sənət nümunəsi deyil, ibadət xarakterli ifalardır. Elə buna görə də bir çox adlı-sanlı sənət adamları cəm evinə girdiyi andan etibarən sıradan bir dərvişə çevrilir, heç kimdən seçilmir və təvazökar bir təslimiy-

yətlə təkyənin bir küncündə oturaraq, xalqla birlikdə zikr edir, semah edir, cəm dədələrinin əmr və dəsturlarını yerinə yetirirlər. Onu da qeyd edək ki, bu hal təkcə Anadolu ələviliyinə aid deyil. Bizim şəxsi müşahidələrimiz əsasında deyə bilərik ki, məsələn Türkiyədə və İranda hal-hazırda fəaliyyət göstərən bir çox məşhur sənətçi müxtəlif təsəvvüf təriqətlərində mürid, zakir, quyəndə (şeir və musiqi ifa edərək, dərvişləri zikrə gətirən adam) qismində çıxış edir. Bunların arasında Türkiyədəki xəlvəti-cərrahi təriqətinin müridi olan Əhməd Özhanı və İrandakı əhli-həq dərvişlərindən biri olan Şəhram Nazerini göstərmək olar. Hər iki sənətçi öz ölkəsində, hətta bütün dünyada məşhur olmalarına rəğmən, mənsub olduqları təriqətə, onun pirinə, mürşidinə, həmin təkyənin üsul və ərkanına son dərəcə sadiqdirlər. Bu faktın özü bir daha göstərir ki, təsəvvüf fəlsəfəsi heç də sadə bir inanc, və ya ritualizmdən ibarət deyil, həm də Yaxın və Orta Şərqin, o cümlədən İslam aləminin bu gün də davam edən mədəni intibahıdır.

**Anadoluda yaşayan Türk xalq sufizmi**

Sonuncu izahlardan da göründüyü kimi, Anadolu ərazisindəki ürfani-sufi rəngarəngliyinə və təriqətlər arasındakı sosial-mədəni və hətta sinif fərqlərinə baxmayaraq, onların hamısı müstəqil şəkildə vahid bir sturuktura malikdir. Həmin təriqət və cərəyanlardakı ibadət və zikr mərasimləri, semah ayinləri, oxunan mənzumələr, adları sadalanan övliyalar, ümumilikdə xanəgah və təkyə strukturu arasında eyniliklər çoxdur. Bu təriqətlərə mövləvilik, qadirilik, xəlvətilik, üşşaqilik, cərrahilik və s. daxildir. Bu ümumi strukturun ana xəttini isə, təsəvvüfdəki ilahi eşq, vəhdəti-vücud, vəhdəti-mövcud, fənafillah kimi anlayışlar təşkil edir. Bu təriqətlərin bir çoxu təməl təsəvvüf ərkanından müəyyən qədər uzaqlaşaraq dini-məzhəbi axınlara qarışsa da, Anadolu ələviliyi bu mənada çağımızın çox aktiv təfəkkürə sahib olan nadir təriqətlərindən biridir. Çoxmilyonlu Anadolu Ələviləri on minlərlə kənddə, qəsəbədə yaşayan və kiçik, əski, necə deyərlər, "xərabati" cəm evlərində öz batini güclərini yaşlı və təcrübəli dədələr, pirlər vasitəsiylə qoruyub saxlaya biliblər. Həmin dədələrin demək olar ki, hamısı ozandır, saz çalır, semah edir, nəfəslər, deyişlər icra edirlər. Onlar bu günə qədər nə səhnə, nə konsert, nə də efir üzü görüblər. Hətta, o dədələr üçün çox zaman sazın, bağlamanın, deyiş və semahların artistliklə, yəni incəsənətlə eyniləşdirilməsi yolverilməzdir. Biz bu maraqlı tendensiyanı İran və Güney Azərbaycan ələviləri olan əhli-həqlərdə daha qabarıq şəkildə görürük. Məsələn, hələ də bu günə qədər əhli-həq tənburunu efirdə və ya səhnədə doğru-düzgün görən olmayıb. Əhli-Həqlər duasız, dəstəmazsız həmin musiqi alətinə toxunmaz, cəmxanalardan kənarda onu ifa etməz, əhli-həq olmayan heç kəsə tənbur çalıb, kəlam oxumazlar. Həm Əhli-Həqlər, həm də Anadolu Ələviləri arasındakı bu gizliliyin, bu mühafizəkarlığın iki ana səbəbi vardır. Bunlardan biri təriqət sirlərini, özləri demişkən, "naməhrəmlərə" açmamaqdır, bu gözəlliklər onu anlamayanın, ona dəyər verməyənin əlinə düşməməli, hər kəs ondan istifadə edib, həmin semahları, deyişləri, kəlam və zikrləri populyarlaşdırmamalıdır. İkinci bir səbəb isə, tarix boyu hər iki coğrafiyada ələvilərin də, əhli-həqlərin də yerli hakimiyyətlər və onların əlində silah etdikləri dini-məzhəbçilik tərəfindən təqib edilməsi olmuşdur.

Lakin unutmaq olmaz ki, həm Anadolu Ələviliyi, həm də İran və Güney Azərbaycan Əhli-Həqliyi bir təriqət hadisəsi olaraq, nə qədər spesifik və qapalı olsa da, bir o qədər kütləvidir. Çünki bu ideoloji cərəyanların özü həddindən artıq geniş kütlələri əhatə edir. Bu kütləvişləşmə təbii ki, təriqətçiliyin fonunda ozanlığı, aşıqlığı, şairliyi və sənətkarlığı da inkişaf etdirmişdir. Məsələn, Anadolu Ələviləri içərisində, xüsusilə də kənd və qəsəbələrdə elə bir ev olmaz ki, orada ya saz, ya bağlama, ya cürə olmasın. Hətta onu çalmağı bacaran olmasa belə, bu alətlərdən biri həmin evin divarından mütləq asılmalıdır. Sazın varlığı ələvi-qızılbaşlığın varlığının əsas göstəricilərindən biridir. Bu faktı biz Güney və Quzey Azərbaycanda da müşahidə edirik. Bununla əlaqədar təkcə iki bölgənin – Borçalının və Qaradağın adını çəkmək kifayətdir. Biri Quzey, digəri Güney Azərbaycan bölgələrində yer alan bu tarixi Azərbaycan ərazilərində həqiqətən də elə bir ev tapmaq mümkün deyil ki, o evdə saz çalınmasın, ozanlığa, aşıqlığa rəğbət və məhəbbət olmasın. Azərbaycan aşıq sənətinin bir-birindən uzaq məsafələrdə yerləşən bu iki bölgədəki inkişafı və qarşılıqlı əlaqəsi bugünkü şəraitdə daha çox ortaya çıxmaqdadır. Belə ki, gediş-gəlişlərin asanlaşması,

efir və internet resurslarının verdiyi imkanlar sayəsində biz Azərbaycan türklərinin ozan-aşıq sənətinə olan tarixi-genetik bağlılığının nə qədər güclü, nə qədər köklü olduğunun bir daha canlı şahidi oluruq. Xüsusilə də Borçalı zonasında mövcud olan və bu gün də yaşadılan aşıqlıq ənənəsinə əsasən, hətta dünyadan gedən bir aşığı-dədəni-ozanı öncə Quran ayələri, daha sonra sazla dəfn edirlər. Çağdaş dövrümüzdə Borçalı çüxurunda yaşayan bu adətdə, yəni ölən mötəbər bir el aşığının dəfnində əsasən məşhur və qədim "Mənsuri" saz havası ifa olunur. Nadir rast gəlinən bu ritualın bənzərinə biz bu gün Anadoluda geniş şəkildə şahid oluruq. Hətta türk dilində cənazə namazı olaraq bilinən bu mərasim öz unikallığı ilə seçilir.

"Türkçe cenaze namazı
Bismi şah, Allah Allah
Sağ el kalp üzeri
Her canlı ölümü tadacaktır
Her şey aslına dönecektir
Haktan geldik, Hakka dönecektir
Yüce Allahın selamı ve rahmeti
Muhammet Mustafaya

Aliyel-Murtazaya ve onların evlatlarına selam olsun... [3. s. 26]

Başqa bir maraqlı məqam isə bundan ibarətdir ki, sovetlər dönəminin və ondan öncəki işğal siyasətlərinin nəticəsi olaraq, Borçalı və ümumiytyətlə Şimali Azərbaycan aşıq sənətindən fərqli olaraq, Cənubi Azərbaycan və xüsusilə də Təbriz-Qaradağ aşıq məktəb və mühitlərində təsəvvüf ideologiyası gizli və aşkar şəkildə özünü qoruyub saxlamışdır. Belə ki, Güney Azərbaycanda Qaradağ aşıqlarının böyük əksəriyyəti əhli-həq ələviləridir. Lakin həmin o aşıqlar Anadoludakı ələvi-qızılbaş ozanlarından fərlqi olaraq, bunu üzə çıxarmır, xalq arasında öz əqidələrini gizli saxlayırlar. Bunun isə iki səbəbini görürük. Birincisi, məlum olduğu üzrə İran və Güney Azərbaycan Əhli-Həq təkyələri ümumiyyətlə gizli və qapalıdır. Əhli-həqlər sadəcə bir neçə zahiri əlamətlərlə (məsələn, heç zaman kəsmədikləri bığları ilə, siqaret çəkmələri ilə və s.) bilinirlər. Bu əlamətlər istisna olmaqla, heç bir əhli-həq nümayişkaranə bir şəkildə öz əqidəsini ortaya qoymaz, hətta bunu ciddi cəhdlə gizlədər. İkinci bir səbəb isə, xüsusilə son dövrlərdə Güney aşıqlarının Şimali Azərbaycanda yaşayan çağdaş aşıq məktəbləri ilə sıx əlaqəyə keçməsi ilə bağlıdır. Yəni, bu taydakı aşıqların təsəvvüf və ürfani bilgilərdən uzaq olmaları o taydakı aşıqlara da təsir göstərmişdir. Həm əhli-həq olmanın gizliliyi, həm də populyarlıq və pul qazanmaq xatirinə ürfani mətləbləri gözardı etməklə müasir Güney Azərbaycan aşıq sənəti sahəsində mənəvi bir aşınma gedir.

Lakin Anadolu ələvi ozanlığı tam tərsinə, öz ideoloji bazasını nəinki qoruyub saxlayır, hətta daha da irəli gedərək, onu dünya mədəniyyətləri sırasına çıxarmağa çalışır və bir çox məqamda bunu gerçəkləşdirməyi bacarır. Ozanlığa, üstəlik də təsəvvüf ozanlığına xas olan ümumbəşəri ideya bazası, yəni mənsub olduğu dinin, millətin, coğrafiyanın sərhədlərini aşaraq, daha qlobal düşüncələri tərənnüm etmə özəlliyi çağdaş Anadolu ozanlığının əsas keyfiyyətlərindən biridir.

Müasirimiz olan Anadolu ələviliyi yeni yaranmış bəzi ifrat solçu və yaxud da ifrat antiislami qanadlar (məsələn, "Əlisiz Ələvilik" kimi absurd ideyalar) nəzərə alınmazsa, öz kökləri üzərində boy atıb ucalan bir ağac kimi hələ də öz yaşıllığını, öz təravətini və öz məhsuldarlığını qoruyub saxlayır. Bəlkə də ələviliyə Anadolunun bu gün daha çox ehtiyacı vardır. Çünki Ələvilik, Bektaşilik kimi təsəvvüf cərəyanları fikir və fəlsəfə olaraq, eyni zamanda həyat tərzi və ictimai-sosial aktivlik olaraq, inancla inancsızlıq arasındakı get-gedə dərinləşən və genişlənən uçurumu doldurmaq məsələsində istisnasız əhəmiyyətə malikdir. Ümumiyyətlə isə, ürfanın və təsəvvüfün qayəsində də həmin bu ucalıq, bu ülvilik dayanır.

**Ələvi-Qızılbaş poeziyasında batinilik**

Artıq illərdir ki, elmi araşdırmalara, publisistik nəşrlərə, teatr səhnələrinə, kino industriyasına və digər sahələrə mövzu kimi daxil olan Anadolu ələviliyi bu yaradıcı sferalarda nə qədər irəli və modern görüntülərə nail olsa da, müəyyən təhriflərə və deformasiyalara da məruz qalır. Tərəfkeşlik, siyasiləşmə, sinfiləşmə kimi anlayışların ələviliklə bir araya gətirilməsinin əlbəttə ki, tarixi və ictimai səbəbləri vardır. Məsələn, çox maraqlıdır ki, Türkiyədəki solçular, ateistlər və digər buna bənzər zümrələr inanclı toplumlar içərisində yalnız ələvilərlə ünsiyyətə girir, onları sevir və onlarla həmfikir olurlar. Bu səbəbdən hətta ələviləri "kommu-

nist”, “ateist” hesab edənlər də vardır. Lakin bu proses nə qədər təbii şəkildə getsə də, gerçək Anadolu ələviliyinin həqiqi və əsl mahiyyəti bu deyil. Bu mənada biz həqiqi ələviliyin nə demək olduğunu ozanların və onların daşıdığı irfani-fəlsəfi ozanlıq anlayışının simasında görə bilərik. Böyük əksəriyyəti həm də şair olan çağdaş Anadolu ələvi ozanlarının şeirlərində müəyyən qədər ictmai-siyasi məsələlər yer tutsa da, bu poeziyanın ana qanadını, onun mayasını, nüvəsini klassik qızılbaşlıq, klassik türk xalq təsəvvüfü təşkil edir. Bu nüvədən, bu mərkəzdən uzaqlaşdıqca ələviliyin də gerçək varlığı yox olub gedir. Onun varlığı isə, bütün ruhani-mənəvi cərəyanlarda olduğu kimi, məhz batiniliklə bağlıdır. “Batin” kəlməsi ərəb dilindəki “bətn” yani, daxili, görünməz, gizli mənaları ilə eyni kökdəndir. Bu sözün bir ucu da Qurani-Kərimin “Hədid” surəsindəki  “O əvvəldir, o axırdır, o zahirdir, o batindir” [32, s. 602] ayəsinə dayanır. Buradakı “batin” həm də “Allahın 99 gözəl adı” (“Əsmaül-hüsna”) olaraq sıralanan isimlərdən biridir. Batiniliyin əksər sufi dərvişlərə  verilməsi təsəvvüfdəki kəramətlərin, qeyri-adi zaman və məkan təbəddülatının mürşidlərin, pirlərin, dədələrin möcüzəvi şəxsiyyətindən doğan hadisə və kəlamları ilə bağlıdır. Batinilik həm də zahiri əlamətlərlə birgə üzdə olmayan, çoxluğun görmədiyi, anlamadığı məqamların varlığı ilə səciyyələnmişdir. Məsələn, bugünkü təkyə mərasimlərində icra edilən zikrlərdə, dualarda əksər böyük mütəsəvvüflərin adını çəkərkən (məsələn, Şeyx Əbdülqadir Geylani, Şeyx Əhməd-ər-Rifai, Şeyx Cüneyd Bağdadi və s.) “Qaddəsallahü sirrahu” kəlməsi işlədilir – mənası “Allah onun sirrini müqəddəs etsin” deməkdir. Bu, islami söhbətlərdə, dini mətnlərdə Peyğəmbərlərin adı keçərkən “Əleyhissəlam” – “Allahın ona salamı olsun” ifadəsinin təəsvvüf çevrələrindəki qarşılığıdır. Dindəki müqəddəslərə ünvanlanan bu tip söz önləri, təsəvvüfdə mürşidlərə, pirlərə, təriqət böyüklərinə ünvanlanır. Bu izahlardan da göründüyü kimi, batinilik sufiməşrəb cərəyanların ana qaynağını, onun mühərrikini təşkil edən əsas amillərdən, hətta əsas şərtlərdən biridir. Batinilik həm də bir anlamda klassik sufi tərkidünyalığını ehtiva edən və ondan qaynaqlanan bir düşüncə metodudur. Sufizmin mistikası haqqında bir mənbədə oxuyuruq: “Peyğəmbəri olan dinlərdəki dua, bərabər olmayan iki tərəf arasında gerçəkləşən bir dialoqdur. Bu dinlərdəki dindarlıq əyləncəli və hüzurlu bir həyatı təmin edir. Halbuki mistisizm tərki-dünyalığı əxlaqdan üstün tutaraq daha uca bir idrakı kəşf etmək üçün həyatdan qaçmağa çalışır” [4, s. 22]. Türk xalq sufizminin ən bariz nümunəsi olan Anadolu ələviliyində də batinilik fikri hər zaman öndə olmuş, batini dədələrə, “Kitabi-Dədə Qorqud”da deyildiyi kimi, “Qaibdən dürlü xəbərlər” verən pirlərə, mürşidlərə böyük ehtiyac duyulmuşdur. Bu faktorlar elm adamları üçün sıradan bir ezoterizm kimi görünə bilər. Ancaq bu ezoterik bilgi və hadisələr geniş xalq kütlələrini, eyni zamanda da elitar saray ərkanı da daxil olmaqla, böyük alimləri, arifləri, şairləri heyrətə salmış, onlara dərindən təsir etmişdir. Məsələn, Anadoluda gəzən məşhur bir rəvayətə görə, Mövlana Cəlaləddin Rumidən Yunus Əmrə haqqında soruşduqda o, “hara getdimsə, hansı ruhani məqama yüksəldimsə, bu türkmən dərvişini orada gördüm!” cavabını vermişdir. Əlbəttə, bu və bunun kimi xalq deyimləri həqiqət olmaya bilər. Lakin məsələ nə Mövlananın, nə də Yunusun şəxsində deyil, təsəvvüf öndərlərinə, xalq ozanlarına olan xalq münasibətindədir. Belə ki, türk xalqı bu ozanlara təkcə sənətkar, şair kimi baxmamış, ilk növbədə onları müqəddəsləşdirmiş, onlara “dədə” statusu vermişdir. Bu adla yanaşı “abdal”, “miskin”, “dərviş”, “xəstə” kimi təxəllüslər də Türk dünyasında, o cümlədən, Azərbaycan və Anadoluda çox yayılmış, çox sevilmişdir. Təkcə Yunusun şeirlərində biz “Dərviş Yunus”, “Miskin Yunus” kimi məxləslərə istənilən qədər rast gəlirik. Bunlar nəyin göstəricidir? Əlbəttə ki, bu adların, bu künyələrin hamısı istisnasız olaraq, birmənalı şəkildə təsəvvüf terminləridir və ürfani mənalar daşıyır. Ancaq çox maraqlıdır ki, ürfanın və təsəvvüfüm ilkin və ən güclü qaynağı sayılan Şərqin əruz vəznli klassik divan və təhkiyə ədəbiyyatında biz bu terminlərlə çox nadir hallarda üzləşirik. Halbuki bu sözlərin hamısı ya ərəb, ya da fars mənşəlidir. Mütləq şəkildə qeyd etməliyik ki, bu məsələdə də istisnalardan biri Şah İsmayıl Xətayinin əruz vəznli şeirləridir. “Bu gün əlimizdə olan Şah İsmayılın divanına diqqət etsəniz, mövcud olan şeirlərin hamısının, bizim demək olar ki, bütün sünni təriqətlərdə belə, hətta Nəqşibəndliyin son dönəmi istisna olmaqla, Mövləvilikdə,

Yunusun şeirlərində, ya da Üşşaqilikdə, Məlamilikdə gördüyümüz və ya bizim Bektaşi şeirlərində, ədəbiyyatında müşahidə etdiyimiz anlayışın cizgisində yazılmış olduğunu görərsiniz [5. s. 234].

Xətai poeziyasının xəlqiliyini isə xalq şeiri, xalq ədəbiyyatı və onun özünün də bu janrın yardıcılarından biri olaraq gördüyümüz ozan-aşıq poetikası ilə bağlılığında axtarmaq lazımdır. Anadolu coğrafiyası bu mənada çox münbit şəraitə malikdir. Məsələnin ən cəlbedici məqamlarından biri də budur ki, Şah İsmayıl Xətai və Anadolu ozanlığı barəsində tarixi keçmişdə danışmaq mümkün olmur. Çağdaş Anadolu ozanlığının mayasında Şah Xətai obrazı o qədər güclüdür ki, bəlkə də Xətaisiz bu sənət və poeziya hadisəsini təsəvvür etmək mümkün deyil. Bunu müasirimiz olan Anadolu ozanlarının özləri də etiraf edirlər. Xüsusilə də cəm evlərində zakirlər tərəfindən ən çox oxunan deyişlər sırasında Şah İsmayıl Xətai poeziyası öndə gəlir. “Şah İsmayılın, daha doğru ifadə etsək, Xətainin xatirəsi Türkiyədə, Ələvi-Bektaşilər içərisində bu gün də yaşamaqda, adı toplantılarda oxunmaqda, şeirləri mərasimlərdə və aşıq məclislərində hər vasitə ilə söylənməkdədir. Bu səbəbdən Anadolu xalqının böyük bir çoxluğu üçün Xətai adının hər zaman mötəbər bir yeri olduğunu xatırlatmağımız yerində olardı” [6. s. 67].

**Tarixi qaynaqlarda və xalq dastanlarında Şah Xətai obrazı**

Tarixi qaynaqlara nəzər saldıqda isə, baş vermiş bəzi hadisələrin də çağdaş Anadolu ozanlığının aparıcı motivlərindən və müasir dövrə uyğun modernləşdirilən məsələlərindən olduğunu görürük. Məsələn, böyük Anadolu ozanı Pir Sultan Abdalın həyatı, şeirləri, ölümü haqqındakı çoxlu sayda rəvayət və əfsanələr, o cümlədən Anadoluda baş vermiş bəzi ələvi-qızılbaş qətliamları kimi hadisələr Anadolu ozanlarının sazındakı, sözündəki ideya-fəlsəfi bazanı təşkil edən önəmli amillərdən biridir. Pir Sultan Abdalın bir Xətayi ozanı olduğu, bir Şah Xətayi fədaisi olduğu haqqında Anadoluda çoxlu mənqəbələr mövcuddur. Bu kimi paralelliklərin fonunda biz Azərbaycan aşıq məktəbinin ilk nümayəndələrindən sayılan Dirili Aşıq Qurbaninin də Şah İsmayıl Xətai sarayının ozanı olduğu və əslində səfəvi xanədanının bir müridi olduğunu da görürük. Real tarixi hadisələrlə xalq rəvayətlərinin məhz ozan-aşıq sənəti daxilində birləşməsi həm də qədim türk dastançılığı ənənələrindən gəlir. Məsələn, biz bütün Türk dünyasında məşhur olan “Koroğlu” dastanında həm baş qəhrəmanın özünün ozan olduğunu, həm də yanında mürid və ya pir, mürşid qismində bir ozanın olduğunu müşahidə edirik. “Koroğlu” dastanındakı Aşıq Cünun obrazı məhz bu baxımdan xarakterikdir. Bu ozanlığın kökü “Kitabi-Dədə Qorqud” boylarından gələn Oğuz bəylərinin həm özlərinin qopuz çalıb oxumaları, həm də onların yanında Qorqud Ata kimi bir ozanın, bir dədənin varlığından qaynaqlanır. Türk dastanlarındakı həmin bu ozanlar qəhrəmanların mənəvi dəktəkçisi, tərənnümçüsü olmaqla yanaşı, həm də zaman-zaman onların ruhani öndəri sifətində çıxış edirlər. Bu mənzərənin fonunda Güney Azərbaycanda Aşıq Qurbaninin, Anadoluda isə Pir Sultan Abdalın ozanlığını biz Şah Xətai və ümumilikdə səfəviyyənin mənəvi siması olaraq görürük. Məlum tarixi hadisələrdən dolayı Şimali və Cənubi Azərbaycandan fərqli olaraq, Anadoluda bu ənənəvi tendensiya, yəni ozanların türk böyüklərinin yanında olması məsələsi tarixlə olan bağlılığını qırmadan, həmin mənəvi silsiləni başqa bir formada bu gün də davam etdirməkdədir. Bu gün Anadoluda Şah Xətainin dünyəvi hakimiyyətinin yerini onun mənəvi hakimiyyəti almışdır. Lakin öz dövründə olduğu kimi bu gün də onun tərənnümçüləri, onu yaşadanlar yenə də ozanlardır. Həm onun öz şeirləri, həm də onu birbaşa və dolayısı ilə vəsf edən digər ozanların şeirləri bu faktı bir daha təsdiq edir ki, Anadolu Ələviliyi Cəfərilikdən, şiəlikdən və bu tipli digər dini-məzhəbi axınlardan məhz ozanlıq vasitəsilə ayrılır. Xüsusilə qeyd etmək lazımdır ki, təsəvvüf fəlsəfəsini, o cümlədən “təriqət”, “mərifət”, “həqiqət” kimi ürfan və təsəvvüfün nəzəri təsnifatlandırmalarını dinin şəriət qanadından fərqləndirən, onu müstəqil bir sivilizasiya amilinə çevirən aparıcı ünsürlərdən biri də məhz türk xalq sufizminin həyatverici qüvvəsi olan Anadolu ələvi ozanlığıdır. “Həqiqətən də Ələvilik böyük bir humanizmdir. Onlara görə, insanı sevmək, Tanrını sevməkdir. İnsana xidmət ən böyük ibadətdir. İnsan Tanrının yer üzündəki təmsilidir, ardıcılıdır. Bu fikir və

davranış Tanrını qəlbdə axtaran dinçi doqmatizmlərə qarşı ağlın üsyanıdır [7. s. 6].

Nəticə etbarilə, Şah Xətainin mənəvi obrazı onun həm əruz, həm də heca vəznli poeziyası ilə birləşərək, Anadolu coğrafiyasında beş əsrə qədər davam edən və ondan da öncəki əsrlərə gedib çıxan səfəvi ideologiyasının bu torpaqlarda yayılmasını və müasir dövrümüzə sivil-mənəvi intellekt nümunəsi olaraq gəlib çıxmasını təmin etmişdir. Yusif Vəzir Çəmənzəminli "Biz Kimik" adlı kitabının "Xətai Nəfəsləri" adlı bölümündə maraqlı mülahizələrlə çıxış edir: "Nəsimi və Xətainin divanlarına girməmiş və dərviş təkyələrində oxunan bir sıra nəfəsləri var. Nəfəslərdə yürüdülən fikirlər çoxdan köhnəlmiş və bugünkü oxucuda istehzalı gülüşdən başqa bir şey doğura bilməz. Lakin ədəbi bir irs olaraq bunların tədqiqi lazımdır" [8, s. 85]. Bu fikirlər müəyyən qədər absurddur. Bunun əsas səbəblərindən biri Yusif Vəzirin özünün realist ədəbiyyat nümayəndəsi olması və məsələlərə bir qədər də həmin dövrün tələb və basqıları altında yanaşmasıdır. Lakin burada ziddiyyətlərdən doğan qəribə bir mənzərə ortaya çıxır. Belə ki, müasir Türk alimlərindən bəziləri (bunların arasında xüsusilə də İ. Arslanoğlunun və digərlərinin adlarını çəkmək olar) öz tədqiqatlarında Şah Xətainin heca şeirlərinin guya ona aid olmadığını iddia edirlər. Ancaq yuxarıdakı sitatda Yusif Vəzirin "Nəsimi və Xətainin divanlara girməmiş və dərviş təkyələrində oxunan bir sıra nəfəsləri var" cümləsi həmin alimlərin fikirlərini təkzib edir. Həm də məlum olur ki, Nəsimi və Xətainin yalnız sufi dərvişlər tərəfindən zikr və mərasim deyişləri olaraq oxunan ayrıca şeirləri var imiş.

## Nəticə / *Conclusion*

Şah İsmayıl Xətai şəxsiyyəti həm özündən əvvəlki, həm də özündən sonrakı nəsillərin ideya-mənəvi təməlini təşkil etməklə, bugünkü Anadolu torpaqlarında yaşayan çoxsaylı ələvi-bektaşi düşüncəli toplumlar üçün əsl varolma mənbəyinə çevrilmişdir. Anadolu ozanlığı bir çox anlamda həm də Anadolunun özü deməkdir! Türklüyün, ana dilinin, xalq mənəviyyatındakı fəlsəfi təmayüllərin əsasını təşkil edən türk xalq ozanlığının təsəvvüflə bağlılığı və bu təsəvvüfün məhz səfəvilik ideologiyasından və birbaşa Şah Xətai poeziyasından ibarət olması bu məsələ barəsində araşdırdığımız mövzunun nə qədər mühüm, nə qədər aktual olduğunu göstərməkdədir. Bu aktuallığın əsas səbəbi isə, bəsit və dialektik məntiqlə baxsaq, əlbəttə ki, Anadolu xalq ozanlığı və onun müasirliyi, onun yaşarı mahiyyətdir. Bu mahiyyətin kökündə isə xalq dilinin ədəbi-bədii səviyyəyə gəlib çıxması, xalq musiqisinin bir folklor ünsürü olmaqdan çıxması, nəticə etibarilə böyük və mürəkkəb fəlsəfi məktəblərin sadə xalqın öz dəyərləri sırasına daxil olması dayanmaqdadır.

## Ədəbiyyat / *References*

1. Özdemir İ. Aleviliğin Yazılmayan Tarihi (Kavramlar-kaynaklar-on iki imamlar, tarih-sürek-inanc-ibadet-edebiyat). Kripto Basım Yayın Dağıtım Ltd. Şti. Ankara 2014, 299 s)
2. Cem Vakfı Temel Bilgiler Kitapçası. Hazırlayan Ayhan Aydın. Cem Vakfı Yayınları 15, El kitapları dizisi 2. İstanbul 2013, 320 s.)
3. Durna R. Yolumuz. AKADEMİ Basın Yayın, İstanbul, 2014, 96 s.)
4. Uluç T. İbn Arabide Sembolizm,İnsan yayınları: 463,2007 – İstanbul, 327 s.
5. Aydın A. Akademisyenlerle Alevilik-Bektaşilik söyleşileri. Can Yayınları-507, İstanbul-2017, 576 s.)
6. Melikoff İ. Kırkların Ceminde. Çeviri: Turan Alptekin. Demos Yayınları, 2011, İstanbul, 198 s.)
7. Özmen İ. Alevi-Bektaşi Şiirleri Antolojisi. Cilt -1. (13. Yüzyıldan 16. Yüzyıla kadar) T.C. Kültür Bakanlığı. 1998-Ankara, 582 s.)
8. Çəmənzəminli Y. V. Bizim Kimik? (məqalələr), Bakı-Nurlan-2004, 136 s.

**Анатолийский Алевизм и литература Озан-Ашик краткое содержание**

**Ляман Османова**

В статье рассматриваются проявления суфийско-кызылбашской идеологии, веками существовавшей в Анатолийской Турции, в литературе озанов-ашугов. Это философское учение, основанное шейхами Ардебиля, стало одним из духовных течений, составивших основу народного суфизма на всем Ближнем и Среднем Востоке. Алеви-кызылбашское мировоззрение и сегодня живо на обширной территории, простирающейся от Хорасана до Кавказа, от Анатолии до Балкан. Родная поэзия шаха Исмаила Хатаи, основателя азербайджанского государства Сефевидов, занимает одно из главных мест в творчестве народных поэтов, особенно в Анатолийской Турции. Нравственная и духовная власть Хатаи над анатолийской общиной кызылбашей-алевитов сохраняется и по сей день. Его стихи используются в поминальных и богослужениях анатолийских алевитов. Эти поэтические образцы, несущие в себе черты святости, также являются одним из факторов сохранения фундаментальных основ национальной идентичности и турецкости в Анатолийской Турции.
**Ключевые слова:** Анатолийский, Кызлбашский, Алеви, Саз, Поэзия, Хатаи, Сефевиды, Суфизм, Балканы и др.